**Laçın İsmayıl oğlu BAĞIYEV**
Qərbi Kaspi Universiteti
Psixologiya və sosial iş kafedrasının magistrantı
E-mail: lachinbagiyev@gmail.com

# NARKOTİK ASLILIQ İLƏ MÜBARİZƏDƏ AİLƏ VƏ CƏMİYYƏTİN ROLU

**Xülasə**

Bu məqalədə narkotik asılılığının cəmiyyətə və ailəyə təsirləri, onun yaratdığı sosial, psixoloji və hüquqi problemlər araşdırılmışdır. Narkotiklərin fərdin psixoloji və fiziki sağlamlığına mənfi təsir göstərməklə yanaşı, ailə münasibətlərini zəiflətməsi və cinayətkarlığın artmasına səbəb olması vurğulanmışdır. Ailənin və cəmiyyətin narkotiklərə qarşı mübarizədə oynadığı mühüm rol qeyd edilmiş, xüsusilə valideyn nəzarətinin, düzgün ünsiyyətin və maarifləndirmə tədbirlərinin əhəmiyyəti izah olunmuşdur. Eyni zamanda, narkotiklərin yayılmasının qarşısını almaq üçün hüquq-mühafizə orqanlarının fəaliyyətinin gücləndirilməsinin vacibliyi və sosial reabilitasiya proqramlarının inkişaf etdirilməsinin zəruriliyi qeyd edilmişdir. Məqalədə gəncləri sağlam həyat tərzinə yönəltmək, onların sosial və psixoloji dayanıqlığını artırmaq məqsədilə müsbət alternativlərin yaradılmasının vacibliyi vurğulanmışdır.

**Açar sözlər:** narkotik aslılığı, ailə, cəmiyyət, maarifləndirmə, valideyin nəzarəti, hüquqmühafizə

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/WTXR2612

## Giriş

Narkotik asılılığı müasir cəmiyyətlərin qarşısında duran ən ciddi sosial və hüquqi problemlərdən biridir. Narkotik asılılığı, insanların mərkəzi sinir sisteminə təsir edən narkotik maddələri davamlı və kontrolsuz şəkildə istifadə etməsi nəticəsində yaranan bir xəstəlikdir. Bu xəstəlik, yalnız fiziki deyil, həm də insanın psixoloji durumuna, ailə münasibətlərinə, sosial mühitə, bir sözlə insan həyatına hərtərəfli mənfi şəkildə təsir edir. Narkotik maddələr, beyindəki kimyəvi balansı dəyişdirərək istifadəçini asılılığa çəkir.

Narkotiklər ailədaxili münaqişələri artırır, valideyn-övlad münasibətlərini gərginləşdirir və ailə institutunun zəifləməsinə səbəb olur. Eyni zamanda narkotiklərin yayılması cəmiyyətdə cinayətkarlığın artmasına, ictimai təhlükəsizliyinin pozulmasına və sosial sabitliyin zəifləməsinə gətirib çıxarır. Bu problemin həlli yalnız hüquq-mühafizə orqanlarının fəaliyyəti ilə məhdudlaşa bilməz; ailə, təhsil ocaqları və ictimai təşkilatlar da aktiv rol oynamalıdır. Xüsusilə, valideynlərin övladları ilə düzgün ünsiyyət qurması, narkotiklərin fəsadları barədə erkən yaşlardan maarifləndirici tədbirlərin həyata keçirilməsi və gənclərin sağlam həyat tərzinə təşviq edilməsi böyük əhəmiyyət kəsb edir.

**Əsas hissə** Ailə, insanın sosiallaşdığı və şəxsiyyət kimi formalaşdığı ilk məkandır. Bu səbəbdən narkotiklərə qarşı mübarizədə ailənin rolu əvəzsizdir. Sağlam ailə mühiti gənclərin düzgün dəyərləri mənimsəməsinə və riskli vərdişlərdən uzaq durmasına kömək edir. Narkotik asılılığın qarşısını almaq üçün ailənin təsiri bir neçə əsas istiqamətdə özünü göstərir.

Valideynlər övladlarının həyatına diqqət yetirdikdə və onlarla açıq ünsiyyət qurduqda, uşaqların narkotiklərə maraq göstərmək imkanı azalır. Valideyn nəzarəti təkcə sərt qaydalar qoymaq və məhdudiyyətlər tətbiq etməkdən ibarət deyil. Əksinə, bu nəzarəti təkcə uşaqların həyatına səmimi maraq göstərmək, onlarla gündəlik qayğılarını və problemlərini paylaşmaq, onları anlamağa çalışmaq deməkdir. Açıq ünsiyyət mühiti uşaqların öz hisslərini rahatlıqla ifadə etməsinə və problemlərlə qarşılaşdıqlarında valideynlərinə müraciət etməsinə şərait yaradır. Əks halda, ailədə kommunikasiya zəif olduqda, yeniyetmələrə dəstək və anlayış axtarışında başqa qruplara qoşula, yanlış yollara yönələ bilərlər. Buna görə valideynlər uşaqları

dinləməli, onların fikirlərinə hörmət etməli və sərt qadağalar əvəzinə maarifləndirici yanaşma tətbiq etməlidirlər.

Uşaqların erkən yaşlardan düzgün tərbiyə olunması və narkotik maddələrin zərərləri barədə məlumatlandırılması onların bu təhlükəli vərdişlərdən uzaq durmasına kömək edir. Maarifləndirmə sadəcə narkotiklər haqqında quru məlumat verməkdən ibarət deyil. Əsas məqsəd uşaqlarda sağlam həyat tərzinə sevgi yaratmaq, onların psixoloji dayanıqlığını artırmaq və qərarvermə bacarıqlarını inkişaf etdirməkdir. Bundan əlavə, məktəb və ailə mühiti arasında sıx əməkdaşlıq olmalıdır. Valideynlər uşaqların təhsil aldıqları müəssisələrlə mütəmadi əlaqə saxlamalı, onların dərs müvəffəqiyyətini və davranışlarını izləməlidirlər. Maarifləndirmə prosesi təkcə narkotiklərin fəsadlarını izah etməklə məhdudlaşmamalı, həmçinin uşaqlara stres və psixoloji təzyiq qarşısında necə mübarizə aparmağı öyrətməlidir [2]. Ailə mühitinin mehriban, səmimi və dəstəkverici olması uşaqların psixoloji sağlamlığında böyük rol oynayır. Ailədaxili münaqişələr, sevgi və qayğının azlığı, valideynlərin layeqd münasibəti uşaqların psixoloji problemlərlə üzləşməsinə səbəb ola bilər. Bu hallar isə narkotiklərə marağın artmasına və qaçış yolu kimi istifadə olunmasına gətirib çıxara bilər. Valideynlər övladlarına emosional dəstək göstərməli, onların problemlərinə ciddi yanaşmalı və hər zaman kömək etməyə hazır olduqlarını hiss etdirməlidirlər. Əgər ailə daxilində hər hansı bir problem və ya münaqişə varsa, bu məsələlərin həlli üçün müvafiq mütəxəssislərin – psixoloqların və sosial işçilərin köməyindən istifadə olunmalıdır. Sağlam ailə münasibətləri güclü psixoloji dayanıqlıq formalaşdırır və uşaqları zərərli təsirlərdən qoruyur.[3,5] Uşaqların davranışları çox vaxt valideynlərin nümunəsi əsasında formalaşır. Əgər valideynlər sağlam həyat tərzi keçirir, pis vərdişlərdən uzaqdırsa, bu, uşaqlara da müsbət təsir edir. Valideynlər uşaqlarına yalnız sözlə deyil, öz davranışları ilə də düzgün istiqamət verməlidirlər. Eyni zamanda, uşaqların narkotiklərə maraq göstərməsinə səbəb ola biləcək risk faktorları azaldılmalıdır. Bu risklərə ailə daxilində narkotik və ya spirtli içki istifadəsinin olması, valideynlərin uşaqlara yetərincə vaxt ayırmaması, psixoloji problemlər və ya depressiya hallarının ailə tərəfindən etinasız yanaşılması və uşaqların mənfi təsirə məruz qala biləcəyi riskli mühitlərə daxil olması daxildir. Bu risklərin qarşısını almaq üçün valideynlər uşaqların həyatına aktiv şəkildə cəlb olunmalı, onların dostlarını tanımalı və maraq dairələrini bilməlidirlər. Eyni zamanda, idman, incəsənət və digər faydalı məşğuliyyətlərə yönləndirərək, onların sağlam bi rmühitdə böyütməsini təmin etməlidirlər.[2,5] Narkotiklərə qarşı mübarizədə ailənin rolu əvəzsizdir. Sağlam ailə mühiti və valideyn dəstəyi, uşaqların düzgün istiqamətləndirilməsi və maarifləndirilməsi, ailədaxili münasibətlərin möhkəmləndirilməsi narkotik asılılığının qarşısının alınmasında mühüm faktörlardır. Valideynlər uşaqlarının həyatına aktiv şəkildə cəlb olunmalı, onlarla açıq və səmimi ünsiyyət qurmalı, nümunəvi davranış nümayiş etdirməli və risk faktorlarını azaltmağa çalışmalıdırlar. Yalnız bu yolla cəmiyyətin sağlam və təhlükəsiz gələcəyini təmin etmək mümkündür.

Müasir dövrdə narkotiklərə qarşı mübarizədə geniş şəkildə müxtəlif sosial reklam vasitələrindən, o cümlədən reklam panellərində maarifləndirici yazı və təsirlir şəkillərdən istifadə olunur. Bu cür vizual və mətn əsaslı məlumatlar insanları narkotiklərdən çəkindirmək, onların fəsadlarını göstərmək və cəmiyyətin bu təhlükəyə qarşı həssaslığını artırmaq məqsədi daşıyır. Lakin qeyd etmək lazımdır ki, bəzi hallarda bu yanaşma xüsusilə yeniyetmələr üçün əks təsir göstərə bilər.

Gənclər, xüsusilə yeniyetməlik dövründə, yeni və qadağan olunmuş şeylərə maraq göstərməyə daha meyilli olurlar. Reklam panellərində narkotiklərə dair məlumatların və onların fəsadlarını əks etdirən təsvirlərin nümayiş etdirilməsi bəzi hallarda onlarda maraq və eksperiment etmək istəyi yarada bilər. Əgər bu maarifləndirmə mesajları düzgün formada təqdim olunmazsa, yeniyetmələrdə narkotik maddələrə qarşı qorxu yaratmaq əvəzinə, əksinə, onlara qarşı marağı daha da artıra bilər.

Buna görə də narkotiklərə qarşı mübarizə məqsədilə yayımlanan reklam və sosial mesajlar hazırlanarkən psixoloji təsir mexanizmləri diqqətlə nəzərə alınmalıdır. Sadəcə narkotiklərin zərərlərini göstərmək kifayət deyil, eyni zamanda sağlam həyat tərzini təşviq edən və gəncləri müsbət alternativlərə yönləndirən strategiyalar da tətbiq edilməlidir. Təhlükəyə diqqət çəkməklə yanaşı, bu problemin həlli yollarını da göstərmək,

gənclərə psixoloji dayanıqlıq aşılamaq və onların marağını narkotiklərdən uzaq, faydalı fəaliyyətlərə yönəltmək daha effektiv nəticələr verə bilər.

Narkotik asılılığı yalnız fərdi bir problem deyil, bütövlükdə cəmiyyətin sağlamlığına, təhlükəsizliyinə və sosial strukturuna mənfi təsir göstərən ciddi bir sosial fenomen kimi qiymətləndirilməlidir. Asılılıq yalnız narkotik maddə qəbul edən insanın fiziki və psixoloji sağlamlığını deyil, onun ailə üzvlərini, dostlarını və bütövlükdə cəmiyyətin sosial nizamını da sarsıdır. Məhz bu səbəbdən narkotiklərə qarşı mübarizə yalnız hüquq mühafizə orqanlarının işi olmamalı, eyni zamanda cəmiyyətin bütün üzvlərinin birgə məsuliyyəti kimi dəyərləndirilməlidir. Bu mübarizədə psixoloji yanaşma və fərdin sosial mühitdəki davranış dinamikaları mühüm əhəmiyyət kəsb edir.

Cəmiyyətin narkotiklərə qarşı mübarizədə ən mühüm vəzifələrindən biri maarifləndirmə işidir. Lakin sadəcə məlumat vermək kifayət deyil, bu maarifləndirmə psixoloji əsaslara dayanmalı və insanın duyğusal-məntiqi qavrayışına təsir göstərəcək formada təşkil olunmalıdır. İnsanlar, xüsusilə də yeniyetmələr, narkotik maddələrin yaratdığı fizioloji və psixoloji asılılıq mexanizmini anlamalıdırlar. Bu, təkcə qorxutma metodları ilə deyil, həm də insan psixologiyasını anlamaqla aparılmalıdır.

Tədqiqatlar göstərir ki, gənclərin narkotiklərə maraq göstərməsinin əsas səbələrindən biri psixoloji boşluq və emosional dəstək çatışmazlığıdır. Ailəd və ya sosial mühitdə qəbul olunmadığını hiss edən, öz dəyərini təsdiqləməkdə çətinlik çəkən insanlar daha çox risk altında olurlar. Buna görə də, maarifləndirmə kampaniyaları yalnız narkotiklərin zərərləri haqqında məlumat verməklə məhdudlaşmamalı, eyni zamanda psixoloji dayanıqlığın artırılmasına yönəlməlidir. Yeniyetmələrə stres, emosional gərginlik və sosial təzyiqlərlə sağlam şəkildə mübarizə aparmağın yolları öyrədilməli, onlara özünü dəyərli hiss etdikləri bir sosial mühit yaradılmalıdır.[4] Narkotikdən asılı insanlar çox vaxt cəmiyyət tərəfindən damğalanır və onlara qarşı mənfi yanaşma sərgilənir. Bu isə onların reabilitasiyasını çətinləşdirir və yenidən narkotik istifadəsinə qayıtmalarına səbəb ola bilər. Cəmiyyətin burada rolu fərdin damğalanmadan və alçaldılmadan müalicə olunmasına dəstək verməkdir. Sosial institutlar, psixoloji mərkəzlər, icma dəstək qrupları və qeyri-hökümət təşkilatları bu şəxslərə yardım etməli, onları yenidən sosial həyata qazandırmağa çalışılmalıdır.

Psixoloji baxımdan, asılılıqdan əziyyət çəkən insanlar özlərini təcrid olunmuş və dəyərsiz hiss edirlər. Onların yenidən cəmiyyətə inteqrasiyası üçün yalnız tibbi və hüquqi yanaşmalar kifayət deyil, həm də psixoloji reabilitasiya proseslərinə diqqət yetirilməlidir. İnsanların özlərini aid olduqları bir sosial qrupun üzvü kimi hiss etmələri və həyatlarında məqsəd tapmaları onların sağalma prosesini sürətləndirən əsas amillərdən biridir.[3] Cəmiyyətin narkotiklərə qarşı mübarizədə hüquq-mühafizə orqanları ilə əməkdaşlığı böyük əhəmiyyət daşıyır. Lakin burada yalnız cəzalandırma əsas metod kimi seçilməməlidir. Psixoloji tədqiqatlar göstərir ki, sərt cəza tədbirləri bəzən gözlənilən effekti vermir, çünki bu, asılı insanları kölgəyə çəkilməyə və problemini gizlətməyə vadar edir. Bunun əvəzinə, erkən müdaxilə və preventiv yanaşmalar tətbiq olunmalıdır.[1] Hüquq-mühafizə orqanları ilə yanaşı, məktəblər, universitetlər, iş yerləri və sosial təşkilatlar risk qrupuna aid insanları erkən mərhələdə müəyyən edib, onlara psixoloji və sosial dəstək göstərməlidirlər. Əgər narkotik istifadəsinin səbəbləri ilə sistemli şəkildə mübarizə aparılarsa, bu problemin kökündən həlli mümkün olar.

Narkotiklərə qarşı mübarizədə ən effektiv üsullardan biri də fərdlərə sağlam alternativlər təqdim etməkdir. Əgər insanlar, xüsusilə də gənclər, mənalı və maraqlı fəaliyyətlərlə məşğul olsalar, onların zərərli vərdişlərə meyilli olmaq ehtimalı azalacaq. İdman, musiqi, rəqs, könüllü fəaliyyətlər, yaradıcı sahələr və digər sosial layihələr insanların narkotiklərdən uzaq qalmasına kömək edə bilər. [4] Psixoloji araşdırmalar göstərir ki, insanın həyatında məqsəd və mənalı məşğuliyyətlər olduqda, onun zərərli vərdişlərə ehtiyacı azalır. Fərdlərə sosial bacarıqlar qazandırmaq, onları icma işlərinə cəlb etmək və özlərinə inam hisslərini artırmaq sağlam alternativlər yaratmağın effektiv yollarındandır.

Narkotik asılılığı ilə mübarizədə ətraf mühitin və dost əhatəsinin də böyük təsiri var. İnsan psixologiyası sosial təsirə qarşı həssasdır və fərd çox vaxt ətrafındakı insanların davranışlarını təqlid edir. Əgər bir insanın dost çevrəsində narkotik istifadəsi adi bi rhal kimi qəbul edilirsə, o da bu

vərdişə daha asanlıqla meyillənə bilər. Buna görə də, sağlam sosial mühit yaratmaq və yeniyetmələri narkotiklərdən uzaq tutacaq müsbət dost əhatəsinə yönləndirmək vacibdir. Valideynlər övladlarının kimlərlə vaxt keçirdyini bilməli, onların sosial münasibətlərini nəzarətdə saxlamalı və sağlam dostluq əlaqələrinin qurulmasına şərait yaratmalıdırlar.

Bundan əlavə, yaxınların rolu da unudulmamalıdır. Narkotikə meyilli olan və ya artıq asılılıq problemi yaşayan insanlara ailə üzvləri və dostları tərəfindən göstərilən emosional dəstək onların bu vərdişdən qurtulmasına kömək edə bilər. Onları qınamaq, uzaqlaşdırmaq və sosial təcridə məruz qoymaq əvəzinə, psixoloji dəstək vermək və problemlərinin kökündə duran səbəbləri anlamağa çalışmaq daha effektiv bir yanaşmadır. Ailədə sevgi, anlayış və qarşılıqlı dəstək mühiti formalaşdırılmalıdır ki, fərd narkotik kimi zərərli vərdişlərə ehtiyac hiss etməsin.[3] Narkotiklərə qarşı effektiv mübarizə üçün təkcə qanunlar və sosial proqramlar yetərli deyil. Hər bir insan öz ətrafında bu məsələ ilə bağlı məsuliyyət hiss etməli, narkotik asılılığından əziyyət çəkən insanlara qarşı empatiya nümayiş etdirməli və onların sağalma prosesinə dəstək verməlidir. Valideynlər övladları ilə açıq ünsiyyət qurmalı, onların psixoloji ehtiyaclarını nəzərə almalı və onların inkişafına töhfə verməlidirlər.

Cəmiyyət içində narkotikdən uzaq durmaq üçün pozitiv nümunələr artırılmalı, sağlam həyat tərzi yaşayan insanlar ön plana çıxarılmalı və bu cür həyat tərzi cəlbedici formada təqdim edilməlidir. Empatiya, psixoloji dəstək, sosial müdaxilə və sağlam alternativlər təqdim etməklə cəmiyyət daha dayanıqlı və təhlükəsiz bir mühit yarada bilər. Bu mübarizə təkcə fərdi bir məsuliyyət deyil, bütövlükdə cəmiyyətin inkişafı və rifahı üçün strateji bir hədəf kimi dəyərləndirilməlidir.

Narkotik cinayətləri yalnız maddələrin fiziki təsiri ilə əlaqəli deyil, həm də sosial strukturu, hüquqi sistemləri və dövlətin resurslarını sarsıdır. Narkotik maddələrin qanunsuz olaraq ölkəyə gətirilməsi, gənclər arasında bu maddələrə marağın artmasına və asılılıq halları ilə bağlı problemlərin böyüməsinə səbəb olur. Bununla yanaşı, narkotik ticarəti ilə məşğul olan cinayətkar şəbəkələr daha da gücləndirir, bu da hüquq-mühafizə orqanlarının işini çətinləşdirir və narkotik cinayətləri ilə mübarizəni mürəkkəbləşdirir.

**Nəticə**

Narkotik asılılığı yalnız fərdi problem deyil, bütövlükdə cəmiyyətin sağlamlığına və sosial strukturuna ciddi təsir göstərən təhlükəli bir fenomendir. Bu problemin qarşısını almaq üçün ailə, cəmiyyət və dövlət qurumlarının birgə və ardıcıl mübarizəsi tələb olunur. Ailə institutunun gücləndirilməsi, valideyn nəzarətinin artırılması, gənclərin maarifləndirilməsi və onların sağlam həyat tərzinə təşviq edilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda,narkotiklərin qeyriqanuni dövriyyəsinin qarşısının alınması üçün hüquq-mühafizə orqanlarının fəaliyyəti gücləndirilməli, sosial reabilitasiya və psixoloji dəstək mexanizmləri inkişaf etdirilməlidir.

Narkotik asılılığı ilə mübarizədə uğur qazanmaq üçün fərdlər, ailələr və dövlət qurumları birlikdə hərəkət etməli, sosial məsuliyyət anlayışı artırılmalı və cəmiyyətin hər bir üzvü bu təhlükəyə qarşı mübarizədə aktiv iştirak etməlidir. Yalnız bu yolla narkotiklərdən azad, sağlam və təhlükəsiz bir cəmiyyətin qurulması mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi. "Azərbaycanda Narkotik Asılılıq Problemi və Mübarizə Strategiyaları" – 2021
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. "Gənclərdə Narkotik Asılılığın Qarşısının Alınması: Azərbaycan Təcrübəsi" – 2020.
3. Al. Leshner. "Addiction is a brain disease, and its matters".
4. Dünya Sağlamlıq Təşkilatı (WHO). "Narkotik Asılılıq: Statistikalar və Tədbirlər" – 2020. (www.who.int)
5. UNICEF. "Ailə və Narkotik Asılılığın Qarşısının Alınması" – 2019. (www.unicef.org)

**Lachin Ismayil BAGHİYEV**
Western Caspian University
Master's student at the Department of Psychology and Social Work

E-mail:lachinbagiyev@gmail.com

## THE ROLE OF FAMILY AND SOCIETY IN COMBATING DRUG ADDICTION

**Summary**

This article examines the impact of drug addiction on society and family, as well as the social, psychological, and legal problems it causes. It highlights the negative effects of drugs on an individual's psychological and physical health, the weakening of family relationships, and the increase in crime. The important role of family and society in combating drug addiction is emphasized, particularly the significance of parental control, effective communication, and educational initiatives. Additionally, the necessity of strengthening the activities of law enforcement agencies to prevent the spread of drugs and developing social rehabilitation programs is highlighted. The article stresses the importance of creating positive alternatives for young people to encourage a healthy lifestyle and enhance their social and psychological resilience.

**Keywords:** drug addiction, family, society, awareness, parental control, law enforcement.

**Лачын Исмаил БАГИЕВ**
Западно -Каспийский Университет
Магистрант кафедры психологии и социальной работы
E-mail: lachinbagiyev@gmail.com

## РОЛЬ СЕМЬИ И ОБЩЕСТВА В БОРЬБЕ С НАРКОЗАВИСИМОСТЬЮ

**Резюме**

В данной статье исследуются влияние наркозависимости на общество и семью, а также возникающие в связи с этим социальные, психологические и правовые проблемы. Подчеркивается негативное воздействие наркотиков на психологическое и физическое здоровье человека, ослабление семейных отношений и рост преступности. Указана важная роль семьи и общества в борьбе с наркозависимостью, особенно акцентируется значение родительского контроля, правильной коммуникации и просветительских мероприятий. Также отмечена необходимость усиления деятельности правоохранительных органов для предотвращения распространения наркотиков, а также развития программ социальной реабилитации. В статье подчеркивается важность создания позитивных альтернатив для молодежи, направленных на формирование здорового образа жизни и укрепление их социальной и психологической устойчивости.

**Ключевые слова:** наркозависимость, семья, общество, просвещение, родительский контроль, правоохранительные органы.